# Milli ideya prioritet demokratik dəyərdir

**Tarixə kontinental imperiya kimi düşmüş Sovetlər İttifaqının dağılmasından sonra bütün müttəfiq respublikalar, o cümlədən Azərbaycan öz taleyinin sahibi oldu, ölkəmiz dünya birliyinə demokratik əsaslarda inteqrasiya etmək, diplomatiya məkanında öz layiqli yerini tutub, son nəticədə güclü dövlət yaratmaq, bu ideala nail olub-olmamaqdan asılı olmayaraq, hər halda, güclü dövlət yaratmaq vəzifəsini strateji hədəf kimi qarşısına qoydu.**

Bizə elə gəlir ki, akademik Ramiz Mehdiyevin elmi-intellektual tutumuna görə monoqrafiya xarakterli "Güclü Azərbaycan dövləti qloballaşma şəraitində milli ideyanın təcəssümü kimi" məqaləsinin işıq üzü görməsini aktuallaşdıran məhz bu cəhətdir. Akademik həmişə olduğu kimi, bu dəfə də nəinki qədirbilən oxucularını sevindirmiş, hətta onlara vətən politoloji fikrində işlənilməmiş problemin analitik təhlilini təqdim etmişdir. Ümumiyyətlə, Ramiz Mehdiyevin fəlsəfi düşüncəsinin önəmli cəhətlərindən biri budur ki, o, heç zaman özü-özünü təkrar etmir, oxucularını düşündürən yeni, lakin olduqca aktual problemlərə müraciət edir.

İndiki halda müəllifi düşündürən başlıca məsələ qloballaşma şəraitində millətin identikliyini itirməmək, güclü dövlət yaratmağın konseptual nəzəri-praktiki əsası olan milli ideya amilinin üstün rolunu qabartmaqdır. Bildiyimiz kimi, qloballaşma millətlərin və xalqların yaxınlaşması prosesi kimi politoloji düşüncəni əhatə edən məsələdir, belə ki, xalqlar arasında ənənəvi sərhədlər tədricən silinir və bəşəriyyət dərk etməyə başlayır ki, o, bir planetar bütövlükdür, onun hər bir inkişaf mərhələsi ciddi öyrənilməli, xalqlar və millətlər qloballaşma şəraitində öz yerini düzgün qiymətləndirməli, geosiyasətdə öz əhəmiyyətini dərk etməlidirlər.

Tarixi reallıqlar göstərir ki, 1648-ci il Vestifaliya sülhündən sonra yaranmış vəziyyətdən fərqli olaraq bu gün demokratik hüquqi dövlətlərin sülhsevərliyinin həcmi xeyli dərəcədə daxili və xarici faktorların, həmçinin hüquq normalarının təsiri nəticəsində məhdudlaşmışdır. Lakin Vestifaliya sülh müqaviləsində təsbit olunmuş sarsılmaz prinsiplər dünya ölkələrinin, o cümlədən Azərbaycanın siyasi praktikasında bu gün də qalmaqdadır. Bunlar dövlətin ərazisindəki dövlət hakimiyyətinin aliliyi, müstəqilliyi və sərbəstliyi, beynəlxalq münasibətlərdə müstəqillik, ərazinin bütövlüyünün və toxunulmazlığının təmin edilməsi prinsipləridir.

Bundan əlavə, son onilliklər dünyada baş vermiş dərin və çoxlu sayda dəyişiliklərə baxmayaraq, dövlət suverenliyi dövlətlərin böyük əksəriyyətinin konstitusiya quruluşunun əsasıdır. Hələ başlanğıcını Aristoteldən götürən, Boden və Hobbs tərəfindən Amerika və Fransa inqilabları dövründə inkişaf etmiş suverenlik fenomeni bu günə qədər çoxlu transformasiyalara məruz qalmışdır.

Lakin bu fenomenin bugünkü vəziyyətini bilmək üçün labüd olaraq "qloballaşma" dediyimiz kompleks proseslərə diqqət yetirmək lazım gəlir. Qloballaşma fenomeninin əsasında hazırda qlobal siyasi və mədəni "üstqurum" üçün fundament rolunu oynayan iqtisadiyyat və maliyyə sahəsindəki proseslərdən söhbət gedir. Belə bir vəziyyət deməyə əsas verir ki, praktiki olaraq insan fəaliyyətinin hər bir sahəsi labüd olaraq müəyyən transformasiyaya uğraya bilər. Tədqiqatçıların böyük əksəriyyəti hesab edir ki, qloballaşma dövlətlərin suverenliyi sahəsinə daha çox təsir göstərir.

Bəzən belə fikir də səslənir ki, iqtisadi qloballaşma milli dövlətin tənəzzülünə gətirib çıxarır. Lakin akademikin qloballaşmaya verdiyi təriflər göstərir ki, yuxarıdakı mülahizə prosesi bütövlükdə əks etdirmir. Qloballaşma proseslərinin müsbət və mənfi nəticələrinə realist nəzəriyyəçi kimi yanaşan müəllif yazır: "Qloballaşmanın həyatımıza nə isə bir yenilik əlavə edəcəyinə aludə olmaq yox, onun hələ tam dərk etmədiyimiz nəticələri haqqında düşünmək lazımdır". Eyni zamanda milli dövlətlərin rolunun və funksiyalarının dəyişməsi (nivelirlənməsi) qloballaşmanın ən mühüm məqsədlərindən biridir". ("Respublika" qəzeti, 4 iyun, 2016-cı il, s.9)

Müəllif belə bir məsələdə də haqlıdır ki, qloballaşma haqqında müxtəlif mülahizələr mövcuddur və bunların heç də hamısı bədbinlik mövqeyini əks etdirmir. Bu gün qəti şəkildə qloballaşmanın idarə olunmasından söhbət gedir. Bir zaman qlobalistlərə qarşı çıxan, yəni antiqlobalist Y.Stiqlits yazır: "Problem qlobalizmin özündə deyil, onun necə idarə olunmasındadır". (Bax: Б.Иноземцев. "Мифы политоков и реализм экономиста". Пред. к книге: Джагдили Бхагвати. В защиту глобализации. М. Ладомир, 2005, s.20)

"İnsan sifətli" qloballaşmanın tərəfdarı olan Djaqdiş Bxaqvati yazır: "Qloballaşmanın idarə olunması elə həyata keçirilməlidir ki, hər vəchlə onun əsas müsbət effektləri təsbit olunsun və gücləndirilsin. Səriştəli idarəetmə olmadan bu vəzifəni həll etmək olmaz" (Джагдили Бхагвати. В защиту глобализации. М. Ладомир, 2005, s.49) C.Saks, L.Turoy kimi tanınmış politoloqlar da bu və ya digər meyarlarla bu mövqedədirlər. (Bax: İnosemtsonun adı çəkilən məqaləsinə və s. XX)

Qloballaşma proqnozu çox zaman bilinməyən hadisələr silsiləsidir və Ramiz Mehdiyev də düzgün olaraq belə bir nəticəyə gəlir ki, "..dünya birliyini gələcəkdə nə gözlədiyini heç kim bilmir" (s.9). Buna baxmayaraq, qloballaşma və milli dövlətlərin rolu, onların suverenliyi, fövqəlmilli təşkilatlarla və millətlərarası korporasiyalarla milli dövlətlərin qarşılıqlı fəaliyyəti məsələləri və bunların həlli problemləri dünyanın bir sıra tədqiqat mərkəzlərində araşdırmaların mühüm istiqamətinə çevrilib. Akademikin analitik təhlili də göstərir ki, bu gün qlobal hadisələrin passiv seyirçisinə çevrilmək nəinki düzgün deyil, hətta bağışlanılmaz mövqedir.

Əksinə, qloballaşmanın ən mühüm aspektlərini öyrənmək lazımdır və bu prosesdə aydın olacaq ki, beynəlxalq münasibətlər baxımından suverenlik və ərazi problemləri öz əhəmiyyətini həmişə saxlayacaqdır.

Milli dövlətlərin güclü dövlət olmağa can atması baxımından burada birinci aspekt qloballaşmanın xüsusi institutlar və proseslər şəklində maddiləşdiyi milli dövlətlərin ərazisinə aiddir. İkinci amil transsərhəd iqtisadi transaksiyaları tənzimləmək üçün yeni hüquqi rejimin üstün təsiri - bu amil, təəssüf ki, sosial tədqiqatlarda dəyərincə nəzərə alınmır. Eyni zamanda artmaqda olan hüquqi legitimasiya prosesi korporasiyaların fəaliyyətinin qloballaşmanın hərəkətverici qüvvələrindən biridir və bu sahədə qloballaşmanın artmasına bilavasitə təsir göstərən çoxlu hüquqi innovasiyalar sistemi toplanmışdır. Üçüncü, düşündürücü məsələ elektron məkanda iqtisadi fəallığın artmasıdır. Elektron məkan bütün ərazi yurisdikasiyasını dağıdır. Bundan əlavə, xüsusilə aparıcı informasiya sahələrində, maliyyə və ixtisaslaşmış korporativ xidmət sahələrində iqtisadi fəaliyyətin artan virtuallaşması həm dövlət, həm də iqtisadiyyat səviyyəsində nəzarət sahəsində böhran anlarının artmasına gətirib çıxarır.

Bu gün qloballaşma şəraitində milli ideyanın həyata keçirilməsindən söhbət gedirsə, bir həqiqət nəzərə alınmalıdır. Real suverenlik real hakimiyyət potensialı ilə dünya birliyi tərəfindən geniş miqyasda qəbul edilməsinin əlaqəsi ilə müəyyən edilir. Bu fonda "güclü dövlət" konsepsiyası öz əhəmiyyətini tam ölçüdə saxlayır.

Ramiz Mehdiyev hesab edir ki, - bu tamamilə düzgün mövqedir - güclü dövlət dünyəvi dövlətdir. Güclü dövlət transparent dövlət idarəetmə sistemini dəstəkləmək üçün vətəndaş demokratik hüququndan demokratiyanın ifrat həddə yuvarlanmasının qarşısını alan güclü hüquq mühafizə strukturları ilə birlikdə istifadə edə bilən dövlətdir. Bu gün dünyada baş verən hadisələrin nümunəsində belə qənaətə gəlmək olar ki, dövlətdə həyat prinsiplərini dövlətin əsas funksiyalarına toxunmadan vətəndaş cəmiyyəti müəyyən etməlidir. Bu zaman güc strukturlarının rolu ayrı-ayrı qrupların imtiyazlarını müdafiə etmək deyil, hüquqi təhlükəsizliyə və asayişə təminat verməkdir" (s.10) Çox maraqlı analitik ümumiləşdirmədir. Güclü dövlət xalq tərəfindən yaradılır, xalq tərəfindən də nəzarət olunur. Başlıcası budur ki, güclü dövlət xalqdan özgələşmiş dövlət deyil, insanların, cəmiyyətin, siyasi partiyaların və ictimai birliklərin, onların ən mühüm qərarların qəbul edilməsində iştirakı ilə dəstəklənəndir.

Siyasi birliklər, könüllü assosiasiyalar, yerli birliklər və vətəndaş cəmiyyətinin özü insanın qanuni mənafelərini və hüquqlarını ardıcıl ifadə edə bilərlər və belə halda insanlar məmurlarla təkbətək qalmırlar. Güclü dövlətin, bu mənada, bir üstünlüyü bundadır ki, insanlara açıq siyasətdə iştirak etməyə, şəxsi həyatına qapanmayıb ictimai maraqlara səy göstərməsinə imkanlar yaradır və bu hüquqları qoruyur.

Suveren dövlətlər nə qədər müstəqil olsalar da, onların öz inkişaf məntiqi var. Müəllif haqlı olaraq yazır ki, Azərbaycan dövlətinin öz inkişaf məntiqi var və göstərir ki, "Azərbaycan 1993-cü ilin ortalarından etibarən ardıcıl surətdə güclü dövlət prinsiplərini gerçəkləşdirmək yolu ilə gedir. İqtidarda olan qrupların neoliberal demokratiya ideyalarına aludə olduqları və bu ideyaları fəal surətdə sosial praktikaya tətbiq etdikləri bəzi postsovet ölkələrindən fərqli olaraq, Prezident Heydər Əliyev və böyük dövlət bəsirəti və uzaqgörənliyi nümayiş etdirərək güclü Azərbaycan dövləti konsepsiyasını irəli sürdü və onu ardıcıl surətdə praktikada reallaşdırmağa başladı. Sonrakı illərdə dövlətimizin bütün fəaliyyəti bu kursun düzgün olduğunu təsdiqlədi". (s.10). Həqiqətən də ulu öndər hakimiyyətə "güclü Azərbaycan dövlətini" qurmaq amalı ilə gəlmişdi. Müasir Azərbaycanın istər xarici siyasətdə, istərsə də daxili siyasətdə, yeni diplomatiya məkanında danılmaz uğurları Heydər Əliyevin "güclü dövlət" konsepsiyasının həyatiliyini bir daha parlaq nümayiş etdirir.

Əsərin mühüm məziyyətlərindən biri də akademik R.Mehdiyevin ABŞ və Avropa politoloqlarının konsepsiyalarına müraciət etməsi, onların dərin analitik təhlilini verməsidir. O, XXI əsrdə qloballaşma proseslərinin qızğın baş verdiyi bir şəraitdə dövlətin əhəmiyyətinin, funksional fəaliyyətinin daha pozitiv olması ideyalarına tərəfdar çıxır və biz Ramiz Mehdiyevin belə bir mövqeyilə tam şərikik: demək lazımdır ki, fikirlərdə uyğunsuzluq əsasən hamı tərəfindən qəbul edilmiş "güclü dövlət" - "zəif dövlət" konsepsiyasının olmaması ilə bağlıdır" (s.10). Müəllif R.Draker, S.Hantinqton və b. kimi görkəmli filosof və politoloqların dövlətin rolunun azalması, milli dövlətlərin aradan çıxması haqqında fikirlərini əsaslandırılmış şəkildə, müasir qloballaşma prosesində üzə çıxan obyektiv faktlarla tutarlı tənqid edir. K.Popperin dövlət "istənilən ayrıca vətəndaşdan və ictimai təşkilatdan daha artıq hakimiyyətə malik olmalıdır" ideyasına müsbət yanaşır.

Əgər dövlət müstəqildirsə o, zəif ola bilməz - real məntiq belədir. Dövlət müstəqilliyini qoruyursa o, həm hərbi, həm də ideoloji cəhətdən güclü olmalı, əhalini sosial mobilliyini təmin etməlidir. Güclü dövlət xalqın milli ideyanın aparıcı elementi olan milli dəyərlərini qorumalıdır, bu məqsədlə özünün siyasi, iqtisadi və mədəni strukturlarını təkmilləşdirməlidir. F.Fukuyama maraqlı bir fikir söyləyir: "Biz dövlət quruculuğu barədə çox fikirləşərkən çoxlu sayda o qədər şey var ki, biz onları başa düşmürük - xüsusilə güclü strukturların inkişaf etməkdə olan ölkələrə necə keçirilməsini. Biz beynəlxalq sərhədlərlə resursları keçirməyi bilirik, lakin ictimai təsisatların düzgün fəaliyyət göstərməsi əhalinin müəyyən mentalitetini və bütün tədbirlər kompleksinin həyata keçirilməsini tələb edir, yoxsa müqavimətə rast gələcək". (Ф.Фукуяма. Сильное государство. Управление и мировой порядок в XXI веке. М., АКТ - Хранитель. Moskva, 2006, Elektron variantı, s.4.) Ramiz Mehdiyev də haqlı olaraq göstərir ki, dövlət xalqın mentalitetinə uyğun dəyərləri qoruyursa, buna qabiliyyəti çatırsa, o, güclü dövlətdir. "Məsələ bundadır ki, milli mentalitet dövlətin həyatının bütün tərəflərinin təşkilində müəyyənedici rol oynayır. Bunu inkar etmək mənasız olardı". (s.10)

Xalqının milli dəyərlərinə, o cümlədən mentalitetinə arxalanan Azərbaycan dövləti öz fəaliyyətini milli ideya konsepsiyası əsasında qurur və reallıqların göstərdiyi kimi "güclü dövlət" ideyasını uğurla həyata keçirir. Müəllif tamamilə haqlı olaraq göstərir ki, "dövlətin güclü və planlaşdırıcı rolu olmasa, Azərbaycanda həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi layihələrin üstündən xətt çəkilə bilər. Güclü dövlət gələcək nəslə və "insan kapitalına" investisiya yatırmadan müvəffəqiyyətli ola bilməz. Azərbaycanda güclü dövlətin uğurlu təhsilə, səhiyyəyə, idmana və digər sosial proqramlara düşünülmüş şəkildə sərmayə yatırılması ilə bağlıdır". (s.11)

Heydər Əliyevin hakimiyyətə gələrkən tez bir zamanda ölkədə sabitliyi bərpa etməsi insanlarımızda gələcəkdə Azərbaycanda güclü dövlətin olacağına inancı artırmışdı. Bu kontekstdə Ramiz Mehdiyev düzgün qeyd edir ki, bu gün Azərbaycan dövlətinin sabit olmasının səbəbi budur ki, o güclüdür, bununla belə, bütün dövlətlərlə qarşılıqlı bərabərhüquqlu fəaliyyətə istiqamətlənib". (s.11) Həqiqətən də, nə qədər ağır olsa da, deməliyik ki, 1990-cı illərin əvvəlində Qarabağ hadisələri nəticəsində ərazimizin 20 faizinin əldən getməsi məhz o dövrdə güclü Azərbaycan dövlətinin olmaması ilə izah edilməlidir. Ona görə də Heydər Əliyev məhz güclü Azərbaycan dövlətinin yaradılmasını ən prioritet vəzifə kimi irəli sürmüş və bu məqsədlə cəmiyyətin bütün potensialını və üzvlərinin enerjisini bu sosial məsuliyyətli vəzifəni həyata keçirmək üçün səfərbər edə bilmişdi.

Bu gün müasir politoloji ədəbiyyatda, daha doğrusu dövlət idarəçiliyi nəzəriyyəsində "qabaqlayıcı vəziyyət" məfhumu işlədilməkdədir. Onun mahiyyəti idarəedənlərin idarə olunanlarla müqayisədə daha yüksək səviyyəyə malik olması kimi başa düşülür. Tədqiqatçı Atamançuk Q.V. bu anlayışı yeni, qeyri-adi, evristik qabiliyyət yaratmaq kimi açıqlayır. Dövlət idarəçiliyində analitiklər, müasir elmi fikrə, təfəkkürə malik, qeyri-standart vəziyyətlərlə bağlı məsələlərə cavab axtarıb tapmağı ictimai maraqları idarəetmənin nəticələri ilə tutuşdurmağı bacaran insanlar lazımdır. Təsadüfi deyil ki, bu məqsədlə ABŞ-da, Fransada, Çində, Almaniyada, Yaponiyada, Böyük Britaniyada son 25 ildə arasıkəsilməz inzibati islahatlar gedir. (Bax: М.А.Нагорная. К вопросу о понятии "Сильное государство в России. s.244) "Güclü dövlətin" ictimai həyatın sosial normalarını və qaydalarını müəyyən edib nizama salınması üçün güclü şəxsiyyətlərə ehtiyacı vardır. Azərbaycan xalqının tarixi xoşbəxtliyi də bundadır ki, xalqımızın ağır qünlərində dövlətimizə Heydər Əliyev kimi güclü şəxsiyyət rəhbərlik etmişdir. Onun miras qoyub getdiyi zəngin dövlətçilik təcrübəsini Prezident İlham Əliyev uğurla həyata keçirir və inkişaf etdirir.

Akademik R.Mehdiyev belə bir düzgün nəzəri fikri açıqlayır ki, güclü dövlət dünyəvi dövlətdir. Həqiqətən də, çoxdinli cəmiyyət şəraitində dünyəvi dövlət klerikal, yaxud teokratik dövlətdən daha güclü dövlətdir, çünki bütün vətəndaşlara spesifik azadlıqlar verilir. Əgər hər hansı bir din dövlət dini kimi müəyyən edilsə, o, demokratiya ideyasına zidd olar, dinlərarası konfliktlər yaranar, siyasi institutların birliyinin yaradılması mümkün ola bilməz. Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycan özünün bir çox göstəricilərinə görə güclü dövlət tipi kateqoriyasına uyğun gəlir. Ölkə Prezidentinin bu ideyasında söykənən müəllif özünün "güclü dövlət" konsepsiyasından çıxış edərək Azərbaycanda "güclü dövlətin" bəzi əlamətləri üzərində dayanır və hesab edir ki, Azərbaycan respublikası:

*-tam suverendir, buna görə də daxili və xarici siyasətində başqa dövlətlərdən, yaxud beynəlxalq təşkilatlardan asılı deyil;*

*-milli iqtisadiyyatı və istehsal sahəsini ən müasir texnologiyalar bazarında inkişaf etdirir;*

*-bütün etnoslarının dövlət ideologiyası olan, tolerantlıq və multikulturalizm kimi dövlət səviyyəsində möhkəmləndirilən elementlərə sahib olan güclü - milli "Azərbaycanizm" ideologiyasına malikdir;*

*-milli mədəniyyəti, elm və təhsili, idman və praktik tələbatı inkişaf etdirir;*

*-pensiyaçıların və aztəminatlı vətəndaşların qayğısına qalır;*

*-qanuna müvafiq olaraq ictimai asayişi səmərəli təmin edir;*

*-dövlətin ərazi bütövlüyünün bərpa edilməsinin zəruriliyinə müvafiq olaraq Milli Silahlı Qüvvələri inkişaf etdirir;*

*-öz müstəqil fəaliyyətində milli maraqlara və dövlət maraqlarına əsaslanan qeyri-hökumət (vətəndaş) strukturlarını hər vasitə ilə dəstəkləyir;*

*-radikal qrupların, xüsusən başqa dövlətlər, yaxud beynəlxalq təşkilatlar və s. tərəfindən maliyyələşdirilən qrupların fəaliyyətinin qarşısını qanuna müvafiq olaraq bacarıqla alır. (s.12)*

Bizə elə gəlir ki, Ramiz Mehdiyev "güclü dövlətin əlamətləri" konsepsiyası Azərbaycan milli ideyasının humanist potensialı ilə dialektik vəhdət təşkil edir.

Heydər Əliyevin siyasət məktəbinin layiqli yetirməsi olan, ulu öndərin siyasət fəlsəfəsini dərindən bilən akademikin tezis şəklində təqdim etdiyi bu "əlamətlər" çox mühüm praktik və elmi-metodoloji əhəmiyyət kəsb edir, müəllifin Azərbaycanın sosial-siyasi gerçəkliyinin geniş politoloji mənzərəsini səriştəli bilməsindən xəbər verir.

Ümumiyyətlə, akademik Ramiz Mehdiyevin bu günə kimi işıq üzü görmüş bütün əsərlərinin mühüm məziyyəti bundadır ki, o nəinki son dərəcə aktual problemləri işləyir, hətta toxunduğu məsələnin dolğun analitik təhlilini verir. Onun bu əsəri də istisna deyil. Müəllif əsərində dövlət ideologiyası məsələsinə toxunur, bu barədə mövcud ədəbiyyatın obyektiv tənqidi qiymətini verir və belə bir mövqedə durur ki, dövlətin ideologiyası olmadan rasional dövlət idarəçiliyindən söhbət gedə bilməz. O, qeyd edir ki, "elmi-texniki, bilik və təhsilin geniş yayılması, şüurun sekulyarizasiya dövründə ideologiya gerçəkliyin, o cümlədən bəlkə də başlıca olaraq obyektiv, yəni elmi cəhətdən əsaslandırılmış dərki üzərində qurulmalıdır". (s.13) Həqiqətən də, vətəndaşların birgə həyata olan iradəsini ifadə edən ideyalar məcmusu olmadan dövlət mövcud ola bilməz, onun strukturlarının fəaliyyəti səmərəsiz olar.

Ramiz Mehdiyev bu əsərində xalqımızın siyasi taleyi üçün son dərəcə önəmli məsələyə toxunur: XXI əsrin milli ideyasının təcəssümü olan müasir güclü Azərbaycan dövlətinin yaradılması millətin güclü liderə malik olmasının nəticəsidir. Akademik bu qənaəti tam inamla göstərir. Belə bir fikir var ki, xalqın lideri anadagəlmə lider olmalıdır. Şəxsiyyətin bəzi fitri keyfiyyətləri bununla razılaşmağa qismən əsas verir. Bu xüsiyyətləri biz fenomenal yaddaşa malik Heydər Əliyevin simasında görürük. (s.13) Bizə elə gəlir ki, Ramiz Mehdiyev bu yığcam etik cizgilərlə ulu öndərin liderlik simasının bütöv portretini yarada bilmişdir. Heydər Əliyev təbiətən ona verilən intuisiya ilə böyük problemlər məkanında optimal seçim edə bilir, bəzən həlli mümkün olmayan problemlərin öhdəsindən gəlirdi.

Akademik siyasi düşüncəsində həmişə ardıcıl olmuş, İlham Əliyev fenomenini dərindən öyrənmişdir. Məhz bunun nəticəsidir ki, müəllif İlham Əliyevi, yalnız Heydər Əliyev zəkasının varisi kimi deyil, xalqın ona real rəğbətini də obyektiv, qiymətləndirir: "Bu gün xalq milli lider mandatını, bu məsul missiyanı beynəlxalq birlik tərəfindən görkəmli dövlət xadimi kimi tanınan İlham Əliyevə etibar edib. Müasir çiçəklənən Azərbaycan əsl millət lideri kimi onun iradəsinin, zəkasının və istedadının nəticəsidir" (s.130)

Bu gün dünya nizamı son dərəcə mürəkkəbləşmişdir. Ramiz Mehdiyevin dediyi kimi, "hazırda Qərb dövlətlərinin liderlərinin beynəlxalq əlaqələr sistemində vəziyyəti yaxşılaşdırmağa yardım etmək, dünyanın bir çox ölkələrini bürümüş siyasi xaosu dayandırmaq üçün siyasi nüfuzu yoxdur". (s.14) Birləşmiş Ştatların dünya liderliyinə, planetdə birqütblü siyasi məkan yaratmaq cəhdi iflasa uğramışdır. Tanınmış siyasətçi Henri Kisincer hələ ABŞ-da 1994-cü ildə (postsovet məkanında 1997-ci ildə-müəll.) işıq üzü görmüş "Diplomatiya" kitabında yazırdı: "Dünya nizamında, həqiqətən də, yaranan yenilik budur ki, Amerika artıq dünyadan özünü ayıra bilmir, burada hökmranlıq edə bilmir, o, tarixi inkişafın gedişində öz üzərinə götürdüyü rola münasibəti dəyişmək iqtidarında deyil, o buna can atmamalıdır da". (Генри Киссинджер. Дипломатия. М., Ладомир. 1997, s.11)

Müasir dünya nizamının fonunda Azərbaycan dövlətinin bir mühüm missiyası var: Azərbaycan bundan sonra da "güclü dövlət" olmalı, milli ideyasına daim sadiq qalmalı, dünya birliyində, yeni diplimatiya məkanında nüfuzunu daha da artırmalıdır, bir də ki, qloballaşmanın çağırışlarına nəzəriyyə də cavab verməlidir - akademik Ramiz Mehdiyevin haqqında bəhs etdiyimiz əsərinin əsas ruhu budur. Biz Ramiz müəllimə yeni-yeni yaradıcılıq uğurları diləyir və bu kiçik yazımızı müəllifin nikbin ruhda səslənən bir fikri ilə bitirmək istərdik: "dünyada qloballaşma proseslərinin gücləndiyi şəraitdə də güclü dövlətin qurulması XXI əsrdə ən effektiv modeldir". (s.14)

**Qoşqar ƏLİYEV,**
**ATU-nun ictimai fənlər kafedrasının müdiri, professor.**